# Buxari Səhihi

# ORUC

## bölməsi

**MÜXTƏSƏR**
**Tam variantlı "Buxari Səhihi"**
**toplusundan**

**Türk dilindən**
**Fərahim Sələfi**
tərəfindən tərcümə və tərtib
edilmişdir

**Bakı – 2005**

Türk dilindən tərcümə və tərtib edən: Fərahim Sələfi
Redaktor: Pənah Mehdi
Texniki redaktor: İbrahim İman
Dizayn: Azər Qurban

**Buxari Səhihi**. Oruc. 2005, səh.

Buxari kimi tanınan Əbu Abdullah Məhəmməd b. İsmail əl-Buxari hicri 194 – miladi 810-cu ildə anadan olmuş və 256/870-ci ildə vəfat etmişdir.

Azərbaycan oxucusuna təqdim olunan bu əsər, İslam aləmində və bütün dünyada ən görkəmli hədis alimi sayılan Əl-Buxarinin məşhur "Buxari Səhihi" əsərinin türk dilinə çevrilmiş "müxtəsər tam variantından" əxz edilərək dilimizə ilk dəfə olaraq bu formatda tərcümə edilmişdir.

(Hələ yaşadığı dövrdə imam əl-Buxari İslam dünyasının hədisşünasları (mühəddisləri) arasında tayı-bərabəri olmayan və inkaredilməz nüfuz sahibi kimi tanınmışdır. "Buxari Səhihi" on bir əsrdən çoxdur ki, müsəlmanlar üçün Qurandan sonra bütün məsələlər üzrə ikinci nüfuzlu əsas mənbədir.)

Əsər, "Buxari Səhihi"nin oruc bölməsini özündə əks etdirir.

Kitabda Allahın Elçisi Məhəmməd Peyğəmbərin (s.ə.s.) orucla bağlı hədisləri verilmişdir.

Buxari Səhihindən bu tərcümə İslamın biliklər xəzinəsinə yiyələnmək istəyən bütün oxucular üçün nəzərdə tutulmuşdur.

## İslamın ən mühüm mənbəyi

# Buxari Səhihi

# ORUC

bölməsi

**RƏRCÜMƏ EDƏN**

**FƏRAHIM**

**BAKI-2006**

# BİSMİLLƏHİR RAHMƏNİR RAHİM!

## Mərhəmətli və Rəhimli Allahın adı ilə!

## ÖN SÖZ

Uca Allahın qüdrəti və əzəməti sayəsində gerçəkləşdirdiyimiz səylərimizlə Azərbaycan dilində mütaliə edən oxucular dünya şöhrətli İslam alimi imam əl-Buxari (810-870-ci illər) tərəfindən tərtib edilmiş peyğəmbərimiz Məhəmmədin (ona Allahın salamı və salavatı olsun) hədislər məcmuəsi olan Buxari Səhihinin bir müxtəsər bölməsi olan oruc tutmaqla bağlı hədisləri ilə tanış olmaq imkanı əldə edirlər.

Buxari Səhihindən əxz etdiyimiz bu **ikinci**[1] kitabçamızın əvvəlkindən bir sıra prinsipial fərqləri var – tərcümə bilavasitə türk mətnindən həyata keçirilmiş, hədislərə dair mətndə verilmiş açıqlama və şərhlərlə yanaşı, tərəfimizdən sətiraltı izahlar da əlavə edilmişdir ki, onlar oxucuları hədislər haqqında daha geniş məlumatlandıracaq.

İslamda müsəlmanların həyat fəaliyyəti üçün hədislərin əhəmiyyəti haqqında deyə bilərik ki, onlar, Allahın Sözü olan Müqəddəs Quranla yanaşı dinimizin əsas ikinci qaynağıdır.

İslamın iki mənbəyi – Quran və hədislər – Peyğəmbər Sünnəsi, ilk nəzərdə, müstəqil olaraq təzahür etsələr də, əslində bir-biri ilə ayrılmaz vəhdət təşkil edir. Hədislər **Qurana uyğun gəlir,** onun ayələrini şərh edir və onlara aid müddəaları açıqlayaraq Allahın Kitabında konkret göstərilmiş məsələləri təfərrüatı ilə mənalandırır.

"Hədis" – sözün dar mənasında Məhəmməd Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) imana, İslam şəriətinə və müsəlmanın yaşayış tərzinə məxsus məsələlərə dair Quran prinsiplərini açıqlayan kəlamlardan ibarətdir. Geniş mənada isə, bu kitabdan göründüyü kimi, "hədislər" kimi qəbul edilən təkcə Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) kəlamları deyil, həm də konkret

---

[1] **Birinci kitab**: Buxari, Namaz, Bakı, 2005, səh. 145.

hallarda onun hərəkət tərzi, ayrı-ayrı səhabələrə, tərəfdaşlarına və düşmənlərinə münasibətidir. Onun müsəlmanlar üçün mühüm həyati əhəmiyyət kəsb edən məsələlərinin həllinə dair göstərişləri, baş vermiş hadisələrə verdiyi izahları və habelə Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) səhabələrinin möminlər üçün davranış nümunəsi rolunu oynaya bilən, onun (rəy söyləmədən bəyəndiyi və) hüzurunda deyilən sözləri və yol verdikləri hərəkətləri də **hədis** sayılır.

Tamamilə şəriətə, müsəlman hüququna, uyğun gələrək, **hədislər** müsəlmanlar üçün hüquqi məna daşıyıcıları funksiyasını yerinə yetirir.

Müsəlmanların həm dini və həm də gündəlik həyatda Müqəddəs Quranla bərabər Məhəmməd Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) hədislərinə də əsaslanmasını nə ilə izah etmək olar? Məgər təkcə Quran onlara kifayət deyilmi? Allahın Sözü olan Quranı şərh etmək lazımdırmı?

Quran **"müttəqilərə doğru yol göstərən"** (Bəqərə, 2/2) Kitabdır. Quran – məhz **"hidayətdir"** (Fussilət, 41/44), **"doğru yolu"** (Loğman, 31/3), **"Allahın hidayətini"** (Zumər, 39/23) göstərir. O, İslam və müsəlmanlar üçün din haqqında, insanın bu dünyadakı həyatının mənası, insanın Allaha yaxınlaşmasının yolları, Yaradanin iltifatına və mərhəmətinə nail olmaq haqqında prinsipial müddəaları müəyyənləşdirir. Quran müsəlmanın həyatında baş verən konkret hadisələr zamanı onun necə davranmasını müəyyən etmir və məhz bu baxımdan onun yığcamlığı, hökmlərinin aforizmi, bu və ya digər məsələlərlə bağlı müddəalarda təfərrüata varılmaması təbiidir.

Təbii ki, müsəlmanlar Quranın bu və ya digər ayələrinin mənalarının şərh edilməsinə, dini məsələlərdə və məişətdə Quranın hökmlərinin yerinə yetirilməsi ilə bağlı aralarında yaranan sualların düzgün həllinə ehtiyac duyurdular. Allah Peyğəmbərə (ona Allahın salamı və salavatı olsun) elə xüsusi səlahiyyətlər vermişdi ki, ölümlü olanlardan heç kimdə onlar olmamış və ola da bilməzdi: **"Allaha və Peyğəmbərə itaət edənlər** *(axirətdə)* **Allahın nemətlər verdiyi nəbilər** *(peyğəmbərlər),* **siddiqlər, şahidlər və salehlərlə bir yerdə olacaqlar"** (Nisa, 4/69); **"Allaha, Peyğəmbərinə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin!"** (Nisa, 4/59); **"...** ***(****Məhəmməd Peyğəmbər* – F.S.*)* **nəyi qadağan edirsə, ondan əl çəkin"** (Həşr, 59/7).

Uca Allah Öz Elçisinin (ona Allahın salamı və salavatı olsun) hərəkətlərini və kəlamlarını, həyat tərzini bütün müsəlmanlar üçün örnək, nümunə etdi: **"Allahın Elçisi Allaha, qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!"** (Əhzab, 33/21). Uca Allah Peyğəmbərə (ona Allahın salamı və salavatı olsun) Quranı izah etmək, İslamın Müqəddəs Kitabında olmayan sualları cavablandırmaq **haqqı** verdi: **"Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni (**hökmləri, halal-haramı**) izah edəsən və bəlkə, onlar da düşünüb dərk edələr!"** (Nəhl, 16/44); **"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (**əmr**) sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır".** Yenə də: **"Amma, xeyr! (**Ya Rəsulum!**) Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim (**münsif**) təyin etməyincə və verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə, (**həqiqi surətdə**) iman gətirmiş olmazlar" (**Nisa, 4/65**).**

Beləliklə, Uca Allah müəyyən etmişdir ki, müsəlmanlar həyatda həm Müqəddəs Quranı – Onun Kəlamını, həm də Sünnəni – Məhəmməd Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) müdriklik təcəssümünü əldə rəhbər tutmalıdırlar.

"Hədis" anlayışı və onun sinonimi olan "sünnə" Müqəddəs Quranın nazil olması və VII əsrin başlanğıcında ərəb cəmiyyətində İslamın bərqərar olması, yeni dinin Ərəbistan hüdudlarından kənara çıxması ilə bağlıdır. Bu ərəb sözləri İslama qədər də mövcud idi. İslamın təşəkkül tapması gedişində isə onlar, dinin özəllikləri kimi, yeni dini dünyagörüşün və ayinlərin düzgün anlaşılması üçün birinci dərəcəli əhəmiyyət kəsb edən istilahlarına çevrildilər. Özü də, "hədis" və "sünnə" sözləri Müqəddəs Quranda həm ilkin (islamaqədərki) və həm də yeni mənada, İslam anlayışı kimi istifadə edilir.

Allahın Kitabının təbliğ etdiyi yeni dini təlim olan Qurana uyğun olaraq, Məhəmməd Peyğəmbərə (ona Allahın salamı və salavatı olsun) İslam təbliğatının ümumi anlaşılmazlıqla qarşılandığı bir dövrdə Məkkədə nazil olan ayədə **"hədis"** sözünə rast gəlinir. Bu ayədə Uca Allah buyurur ki, Peyğəmbər (ona Allahın salamı və salavatı

olsun) hədisə - **yeni təlimə** inanmayanların rəftarına görə ürəyində təəssüflənməməlidir (Kəhf, 18/6).

Quranda ərəb sözü olan "hədis" nə isə bir yeniliyi ifadə etmək, şərh etmək, bəyan etmək, söyləmək mənalarını bildirir. Deməli, bu mənada "hədis" müsəlmanlara indiyədək məlum olmayan, onların qəbul etmədiyi hansısa bir yenilikdir. Məhəmməd Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) təbliğat fəaliyyəti apardığı dövrdə ərəblər üçün Quran və İslamın məhz belə naməlum və qəbulolunmaz bir nəsnə olması, düşünmək olar ki, təəccüblü deyil. Çünki İslam, kökləri qədim əsirlərin dərinliklərinə aparan ənənəvi dini təlimləri sıxışdırıb aradan çıxarmalı idi.

İslamın təşəkkülü və yayılması onun ardıcıllarının dünyabaxışında və davranışında çox böyük mənəvi-ruhani dəyişikliklərin yaranmasına səbəb oldu. Quran prinsipcə çoxsaylı yeni ənənələr, norma və adətlər təbliğ edirdi. O, özünün, ərəblərə, İslamı qəbul etmiş digər xalqlara xas olmayan xüsusi əxlaq dəyərlərini yaratdı və həyata tətbiq etdi.

Beləliklə, ərəblərin və digər xalqların çoxtanrıçılıqdan vahid Allaha ibadətə keçmələri onların həyatında çoxsaylı kəşflərin – **"hədislərin"** tətbiqi ilə müşayiət edilirdi. Onlar üçün, yuxarıda qeyd edildiyi kimi, yeni (hədis) olan şey Quran və onun özü ilə gətirdiyi təlim idi. Quran təlimi və normaları müsəlmanların həyatında başlıca yer tutaraq, onlar üçün gündəlik norma rolunu oynamalı, onların adətinə (adət - ərəbcə - sünnə) çevrilməli idi.

İslama qədər sünnə ərəblərin arasında hökm sürən, onların həyat yolunu müəyyənləşdirən adi məişət normaları, qaydaları və üsulları idi. İslam ona qədər olan heç nəyi əsaslandırmadan inkar etmirdi və etmir, öz ardıcıllarının həyat tərzində əsrlər boyu bərqərar olmuş və adətə çevrilmiş dəyərlərə tamamilə etinasız yanaşmaq mövqeyində də durmur.

İslam bu dəyərləri heç avtomatik olaraq da "özününküləşdirmirdi". İslam, onun əxlaqi təsəvvürlərinə, əxlaqi məqsədlərinə uyğun gəlməyən dəyərlərin qadağan edilməsi prinsipinə əsaslanır. Xalqın həyat fəaliyyətində qalan nə varsa, hətta İslamda nəzərdə tutulmasa belə, hörmətə layiqdir və müsəlmanların gündəlik həyatı və məişətində öz yerini tuta bilər: **"Allah sizə (**bilmədiklərinizi**)**

**bildirmək, sizdən əvvəlkilərin getdiyi yolları (**ərəbcə mətndə - "sünnə"**) sizə göstərmək... istər"** (Nisa, 4/26).

Eyni zamanda, Quran öz dəyərlərinə uyğun gəlməyən keçmişdən qalma nə varsa qətiyyətlə pisləyir və rədd edir. Allah alkoqollu içkilərin qəbulunu, yeni doğulmuş qız uşaqlarının diri-diri basdırılmasını, kişi və qadın arasında qaydasız cinsi münasibətləri, donuz əti yemək kimi adəti və s. pisləyir və qadağan edir.

Bizim, Peyğəmbərə (ona Allahın salamı və salavatı olsun) aid edilən hədislərin **həqiqiliyinə** inamımız və onlarda bu gün də bizi narahat edən çoxsaylı suallara cavab axtarmağımız bir sıra təkzibolunmaz sübutlara əsaslanır.

Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) Quranın ayələrinin qorunub saxlanmasına, onların dəqiqliklə qeyd edilməsinə böyük diqqət yetirməklə yanaşı, özünün ilk təbliğat fəaliyyəti illərində hədislərin yazıya alınmasını qadağan etmişdi. O hesab edirdi ki, hədislər dindarların diqqətini haqsız olaraq çox cəlb edə və onları Müqəddəs Qurandan yayındıra bilər. Lakin müsəlmanların sayı getdikcə artırdı, İslam artıq Mədinənin hüdudlarından uzaqlara çıxmışdı. Bu, təbii olaraq müsəlmanların adi və dini həyatının hərtərəfli yenidənqurulması gedişində qarşıya çıxan məişət məsələlərinin həlli üçün məsuliyyət daşıyan şəxslərin onları *tənzimləyən göstərişlərə* olan ehtiyacının artmasına səbəb oldu. Bu tələbatı ancaq Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) təmin edə, dindarların çoxsaylı suallarına cavab verə bilərdi. Onun hədislərinə olan marağın daima artmasına əhəmiyyətli dərəcədə təsir göstərən amillərdən biri də müsəlmanların Quranı öyrənməyə və əzbərləməyə can atmaları idi. Bu isə, öz növbəsində, onların qarşısında çoxlu suallar qoyurdu ki, cavabı da onlara təkcə Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) verə bilərdi.

Bütün bunları görərək, Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) ətrafındakılara hədisləri yazmağa icazə verdi. Təəccüblü deyil ki, bəzi müsəlmanlar o saat bundan istifadə etdilər. Hədis mətnləri şəxsi istifadə üçün onunla yaxın münasibətdə olan bütün şəxslərdə var idi. Bu barədə çox yəqinliklə şahidlik edə bilən sübutlar ondan ibarətdir ki, məhz Peyğəmbərə (ona Allahın salamı və salavatı olsun) yaxın olan şəxslər hədislərin ötürülməsi və tərtib edilməsində ən başlıca mənbələr olmuşlar.

Hədislər Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) ölümündən sonra müsəlmanlar arasında geniş yayılmağa başladı. Özü də onlar təkcə şifahi formada yayılmırdı. Ona yaxın olan adamların əksəriyyətinin əlində yazıya köçürülmüş hədislər var idi. Ən ilkin hədis toplularını gələcək xəlifə Əli ibn Əbu Talib (hicri 40-cı ildə vəfat edib) və İbn Abbas (Allah onların hər ikisindən razı olsun) (hicri 68-ci ildə vəfat edib) tərtib etmişdilər. Onlar – "Əl-Kədeyyə"[1] adlandırılmışdı.

Yazılmış hədis mətnləri, bir də qeyd edək ki, nəinki ərəblərin arasında, həm də nəhəng müsəlman dövlətinin hər tərəfinə yayılmışdı. Onların geniş yayılmasına səbəb Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) onunla birgə din uğrunda mübarizəsində iştirak etmiş səhabələrinin və ya onunla yaxın ünsiyyət saxlamış şəxslərin müsəlman dövlətinin müxtəlif ucqarlarında yaşamağa başlamaları olmuşdur.

Qeyd edək ki, yeni hədis topluları əməli ehtiyaclar üçün, yəni, əzbərləmək və əldə rəhbər tutmaq üçün tərtib edilirdi. Lakin onları toplayanlar qarşılarında yeni, əvvəllər məlum olmayan hədislərin axtarışı məqsədini qoymurdular. Yeni hədislərin yazıya alınması ilə ancaq ayrı-ayrı adamlar məşğul olurdular ki, onlar hədisləri nə təsnifləşdirməyə, nə də onları sistem halına salmağa çalışmırdılar. Bu sırada istisna təşkil edənlər nadir insanlardı. Belə ki, Əbu Hureyrənin (Allah ondan razı olsun) sözlərindən hədislər rəvayət etmiş Həmmam bin Münəbbihin tərtib etdiyi ən səhih hədis toplusu sonralar hədisşünaslar - mühəddislər tərəfindən klassikaya çevrilmiş məcmuələrin tərtib edilməsində istifadə olunmuşdur.

İslam o vaxtlar, təxminən yüz il və ya bir əsr ərzində dünya dininə çevrilmiş, Qərbdə Hibraltardan başlayaraq, Şərqdə Qaşqara qədər yayılmışdı. Dünyada ən nəhəng müsəlman dövləti olan Ərəb xilafətinin tərkibinə çoxsaylı xalqların məskunlaşdığı ərazilər daxil idi. Onlar müxtəlif dillərdə danışır, ən müxtəlif ənənələrə, xasiyyətlərə və adətlərə malik idilər. Onların böyük bir hissəsi müsəlmanlığı qəbul edərək, əksəriyyəti ancaq hədislərdə öz əksini tapmış yeni qanun və qaydalara müvafiq yaşamalıydılar. Kağız üzərinə köçürülmüş və hamı üçün əlverişli olan hədislərə tələbat gün kimi aydın idi.

---

[1] Bax: "Изречения Мухаммада". Новосибирск, 1995. С. XVII (rus dilində).

İlkin olaraq bu tələbatı nəinki dərk etdi, hətta onu təmin etmək məqsədilə bir sıra addımlar atan xəlifə Ömər Əbdüləziz (681-720) oldu. O, Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) ən yaxın səhabəsi ikinci xəlifə Ömər ibn əl-Xəttabın (Allah ondan razı olsun) nəticəsi idi. O hədis bilicilərini xilafətinin bütün ucqarlarına yollayaraq onlara həm Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) kəlamlarını yaymağı, həm də onları toplamağı tapşırırdı. Onun nümayəndəsi imam əz-Zohri (hicri 50-124-ci illər) Sünnəni rəsmi qaydada yazıya köçürməklə məşğul olanlardan birincisidir. O, özündən əvvəl tərtib olunmuş əlyazma hədisləri əhəmiyyətli dərəcədə genişləndirmişdir.

İslam dünyası həm keçmişdə bilirdi və həm də bu günümüzdə bir çox hədis topluları haqqında məlumata malikdir. Amma onlardan ancaq ikisi "Səhih" adlanır və təkcə onlar mötəbər və etibarlı hədislərdən ibarətdir. Bunlar təkcə – imam əl-Buxarinin "Səhihi" və imam Müslimin "Səhihi"-dir.

İmam əl-Buxari (tam adı Məhəmməd ibn İsmail ibn İbrahim ibn əl-Muğirə ibn Bərdizbah Əbu Abdullah əl-Cufi əl-Buxaridir) 810-cu ildə (hicri 194-cü ildə) Buxarada doğulmuşdur. Erkən uşaqlıq dövründən onun dini tərbiyəsi ilə şəhər məscidlərindən birinin imam xətibi olan babası məşğul olmuşdur.

Gələcək dünya şöhrətli hədisşünasın istedadı hələ onun lap erkən yaşlarında özünü biruzə vermişdi. Artıq altı yaşında olarkən o, Quranın bir çox surələrini əzbər oxuyurdu. Onu dinləmək üçün uzaq yerlərdən gəlirdilər.

9 yaşında yeniyetmə Məhəmməd ibn İsmail hədisləri əzbərləməyə və toplamağa başladı və onları mövzular üzrə ayırmağa cəhd göstərdi. Tezliklə o bu məsələdə uğurlar qazanmağa, öz müəllimlərinin səhvlərini və yanlışlıqlarını görməyə başladı.

O, 16 yaşında, həcc ziyarətindən sonra, dörd il Məkkədə məşhur hədisşünas, o zaman üçün ən böyük – 30 min hədis siyahısına malik olan Əhməd ibn Hənbalın rəhbərliyi altında hədisləri öyrənmiş, tanınmış ilahiyyat alimləri ilə görüşmüş, dini mövzular üzrə aparılan diskussiyalarda iştirak etmişdir.

Sonra Məhəmməd ibn İsmail öz müəllimi ilə Ərəb xilafətinin paytaxtı, öz tədris və elmi ocaqları ilə geniş tanınan Bağdadda bir-neçə il keçirmişdir.

Daha sonra o, Misirdə, Suriyada, Səmərqənddə və Nişapurda yaşamışdır. Olduğu bütün yerlərdə o, yeni hədislərin toplanması və onların sistemləşdirilməsi ilə məşğul olmuşdur. O, cəmi 600 min hədis yaza bilmiş və onlardan 200 minini şəxsən özü toplamışdır. 300 min hədisi əzbər bilirdi. Onlardan 100 minini "əsl", yəni "səhih", 200 minini isə əsli, həqiqi olmayan, səhihliyi şübhə doğuran sayırdı.

İmam əl-Buxari həyatının əsas hissəsini Səmərqənd yaxınlığındakı Xartanqi kəndində keçirmişdir. Burada o, topladığı bütün hədisləri qaydaya salmış, əzbər bildiklərini isə yazıya almışdır.

İmam əl-Buxari ilk dəfə olaraq özündən əvvəlki hədis toplayanların ümumi çatışmazlığı olan – bütün məlum hədislərin hədis toplularına daxil edilməsini aradan qaldırmışdır. Özü də onlar hədisləri ayrı-ayrı məsələlər və suallar üzrə təsnifləşdirmirdilər. Bu isə öz növbəsində hədislərdən istifadə etməyi olduqca çətinləşdirirdi.

İmam əl-Buxari çoxillik işinin gedişində elə bir metod işləyib hazırladı ki, onun tətbiqi hədislərin toplanması və sistemləşdirilməsi üzrə bütün işləri ciddi elmi əsaslarla aparmağa imkan yaratdı. O ilk dəfə olaraq hədisləri doğru, gerçək (səhih) və qeyri səhih, doğru olmayan, uydurulmuş kimi iki qismə böldü. Onun başlıca metodu isnad oldu. **İsnad** – konkret hədisi sonuncu ötürücüdən (rəvayətçidən) onun birinci ötürücüsünədək rəvayətçi həlqələrinin müəyyənləşdirilməsidir. Bu zaman o, əsas diqqəti ilk ötürücü qaynağı rolunu oynamış, hədisi yazıya köçürmüş şəxslərin müəyyənləşdirilməsinə, onu sonradan ötürmüş şəxslərin adlarının bir-bir sadalanmasına xüsusi diqqət yetirirdi. Əsli olan, dəqiq, etibarlı hədislərə o hədislər aid edilirdi ki, onları rəvayət edənlər Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) davranışının bilavasitə şahidi və yaxud onun kəlamlarını, şərhlərini şəxsən eşitmiş olsunlar. İmam əl-Buxari üçün istisnasız vacib olan məqam – hədis ötürücülərinin mənəvi-əxlaqi siması idi; yaramaz hərəkətlərlə, sənədi aşınmalarla bağlı olan şəxsdən rəvayət edilən hədis, səhih hədislər sırasından çıxarılırdı.

Bu və digər üsulların, üslubların tətbiqi imam əl-Buxariyə imkan verirdi ki, hədisin həqiqiliyini və ya uydurulmuş (saxtalaşdırılmış) olduğunu aşkar etsin. Onun metodları etibarlı sipər rolunu oynadı ki, onların vasitəsi ilə Allah Sünnəni qorudu. Allah heç kimə

istədiyini və Allahın Elçisinə (ona Allahın salamı və salavatı olsun) məxsus olmayanı Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) adından danışmağa yol verməmişdir.

Hədislərin, qaynağına mənsub olmasını nəzərə almaqla təsnifləşdirilməsinə imkan verən prinsiplərin işlənib hazırlanmasında və tətbiqində aparıcı rol imam əl-Buxariyə məxsusdur. O habelə, birincilər sırasında məqbul sayılan və rədd edilən hədislərin və onların rədd edilməsi səbəblərinin bölgü tipologiyasını işləyib hazırlamışdır.

Hədislərin seçilməsi üzrə belə bir həqiqətən nəhəng miqyaslı tənqidi əsər parlaq nəticələr verdi. İmam əl-Buxariyə məlum olan **600000** hədisdən səhih olanların siyahısına ancaq **7275**-i daxil oldu ki, bu da **1 faizdən** bir az çox idi. Əvəzində isə, bu hədislər Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) onlarla **həqiqətən mükalimə apardığı 208 şəxsdən** rəvayət edilmişdir.

İmam əl-Buxari səhih hədislər kimi seçdiklərini "Əl-Cəmi əs-Səhih" ("Səhih toplu") adlandırdığı dörd cildliyə daxil etmişdir. Onlarda, hədislərlə yanaşı fiqh (müsəlman hüququ), müsəlman ənənələri, islam əxlaqı və tərbiyəsi üzrə və həmçinin o zamanın tarixi-etnoqrafik məzmunlu nadir məlumatlar öz əksini tapmışdır.

**Hələ yaşadığı dövrdə imam əl-Buxari İslam dünyasının hədisşünasları (**mühəddisləri**) arasında tayı-bərabəri olmayan və inkaredilməz nüfuz sahibi kimi tanınmışdır. "Əl-Cəmi əs-Səhih" on bir əsirdən (**onun müəllifi 870-ci ildə vəfat etmişdir**) çoxdur ki, müsəlmanlar üçün Qurandan sonra bütün məsələlər üzrə ikinci nüfuzlu əsas mənbədir.**

Bu əsərdən istifadə etməyi əhəmiyyətli dərəcədə asanlaşdıran amil, hədislər toplusunun konkret mövzulara bölünməsi ilə bağlıdır. Bölmələrin adları hədislərin məzmununun çoxcəhətli səciyyəsi, İslam dini və şəriətinin izah edilməsi üçün onların böyük əhəmiyyəti haqqında fikri əyani surətdə təsdiq edir. Onlar, müsəlmanın gündəlik həyatına dinin irəli sürdüyü tələbləri, əldə rəhbər tutmaq üçün zəruri olan təlimatları aydın şəkildə ifadə edir.

Bir-neçə nümunə gətirək.

Toplu, "Vəhyin başlanğıcı" fəsli ilə açılır. Fəsil yeddi hədisdən ibarətdir. Bu fəsillər olmadan biz Məhəmməd Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) vəhyləri Uca Allahdan havaxt və

harada almağa başladığını, Quran ayələrinin ona mələk Cəbrail tərəfindən necə verildiyini, bu zaman onun hansı vəziyyətə düşdüyünü, dini təbliğatı fəaliyyətinə başlamasına ətrafdakıların necə münasibət bəsləməsini müəyyənləşdirə bilməzdik.

Buxari Səhihində İslamın Quranda *ümumiləşdirilmiş şəkildə verilməmiş beş əsasının* tam ifadəsi öz əksini tapmışdır. Quranda müsəlmanların bu əsaslara necə riayət etmələri də göstərilməmişdir. Əvəzində isə onlar Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) hədislərində verilib ki, bunu əsərin "Dəstəmaz kitabı", "Qüsl kitabı", "Namazın vaxtı haqqında kitab", "Azan kitabı", "Namazın qısaldılması kitabı", "Zəkat kitabı", "Həcc kitabı", "Oruc kitabı" və b. fəsilləri yəqinliklə təsdiq edir.

Hədislərin əhəmiyyətli bir qismi müsəlmanların qarşılıqlı münasibətlərinə, onların davranışına, gündəlik həyati problemlərinə həsr edilmişdir. Bu qəbildən olan hədislər şərti olaraq iki qrupa bölünə bilər: **Quranda olan müddəaları** şərh edən hədislər; **Quranda bəhs edilməmiş,** lakin müsəlmanlar üçün böyük maraq doğuran və əhəmiyyət kəsb edən məsələlər haqqında məlumat verən hədislər.

Bəşər fəaliyyətinin ticarətlə bağlı nümunəsinə aid hədis növlərindən ən birincisini qısaca səciyyələndirək. Quranda ticarətə bir-neçə ayə (Bəqərə, 2/276, 282; Cümuə, 62/9-11; Nisa, 4/33) həsr olunmuşdur. Onlar İslamın ticarətin aparılmasına münasibətini ümumi şəkildə ifadə edir. Ticarətə, icazə verilməsinə baxmayaraq, fərz namazları başlayan kimi, ona fasilə vermək tələb olunur. Ticarət nağd pulla aparılmalıdır. Sələm – faizlə pul vermək (sələmçilik) qadağandır. Diqqət, müsəlmanları namazdan sonra Allahın mərhəmətini qazanmağa çağıran, yəni öz dini vəzifələrini unutmadan gündəlik işlərlə məşğul olmağı davam etdirməyi tələb edən Allah Sözünə yönəldilir. Ayələrin məzmunundan görünür ki, onlar müsəlmanların ictimai həyatının belə bir mürəkkəb sahəsi olan ticarətin tənzimlənməsi üçün açıq-aşkar kifayət etmir. Məlum olduğu kimi, ilk müsəlmanların həyat fəaliyyətində ticarət aparıcı yer tuturdu. İslamın gəlməsi ilə ticarətlə məşğul olanlar mürəkkəb vəziyyətə düşmüşdülər: keçmişdəki kimi ticarət münasibətlərinə qoşulmaq olmazdı, ticarət münasibətlərində baş verən çoxsaylı məsələlərə Quranda cavab verilmirdi. Və, təbii ki, yeni şəraitdə meydana çıxan bütün suallarla müsəlmanlar Peyğəmbərə (ona Allahın

salamı və salavatı olsun) müraciət edirdilər, alış-veriş məsələlərində onun necə hərəkət etdiyinə diqqət yetirir, onun bəyənməsini və ya pisləməsini gözləyirdilər.

Belə sualların və onlara verilən cavabların səciyyəsi, ticarətə münasibət haqqında Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) müsəlmanlar qarşısında buyurduqları barədə "Buxari Səhihi" fəsillərinin adlarına görə ("Ticarət sövdələşmələri kitabı"; "Öncədən ödəmə kitabı"; "Muzd və icarə kitabı"; "Borcların köçürülməsi haqqında kitab"; "Borc, borcların ödənilməsi, əşyalara həbs qoyulması və müflis hesab olunma haqqında kitab"; "Şəriklik haqqında kitab"; "Girov kitabı"; "Şəhadət kitabı"; "Vəsiyyətnamələr kitabı" və b.) mühakimə yürütmək olar.

Sonda bir xüsusiyyəti də qeyd etmək lazımdır ki, imam əl-Buxarinin məcmuəsinin əksər hədisləri müsəlmanların gündəlik həyati tələbatlarına cavab verən qayda-qanunlardan ibarətdir ki, onların haqqında Qurani Kərimdə ya birbaşa açıqlama verilməyib, ya da onlara ümumiyyətlə toxunulub (bax: "Yemək haqqında kitab"; "Əqiqə (yeni doğulmuş körpəyə adqoyma) haqqında kitab"[1]; "Kəsilən heyvanlar və ov haqqında kitab"; "İçkilər haqqında kitab"; "Xəstələr haqqında kitab"; "Tibb kitabı"; "Geyim haqqında kitab"; "Ədəb-ərkan haqqında kitab"; "Əhkamlar haqqında kitab"; "Sınaq kitabı" və b.).

Əvvəlki (rus dilindən çevirdiyimiz) ilk təşəbbüsümüzdən (Buxari, Namaz, Bakı, 2005) fərqli olaraq, Buxari Səhihinin Türk dilindəki nəşrindən azərbaycancaya tərcümə etdiyimiz bu - orucluğa aid hədislər kitabçası bütövlükdə, müəllifinin vəfatından altı əsr keçdikdən sonra, müsəlman ilahiyyatçı alimi əz-Zübeydi tərəfindən, tərtib edilmiş müxtəsər tam variantın bölməsidir.

Xüsusilə vurğulamaq istəyirəm ki, "Oruc" kitabçası adı altında hazırladığımız səhih hədislər toplusunun bu müstəqil fraqmenti bütün müsəlman camaatımız üçün dəyərli və vacib töhfədir.

Bu əsərdə toplanmış Quran ayələrinin türkcədən tərcüməsi üçün Z. Bünyadov və V. Məmmədəliyevin çevirdiyi Quranın mətnindən istifadə edilmişdir.

Buxari Səhihinin Azərbaycan dilində və həm də ayrı-ayrı müstəqil kitablar formatında nəşri ölkəmizdə İslamın elmi əsas-

---

[1] **Əqiqə -** yeni doğulmuş körpənin altıaxşamı günü ad qoymaqla bağlı qurban kəsilməsi. Oğlan uşağı üçün iki qoyun, qız uşağı üçün bir qoyun qurbanı kəsilir. Tərc.

larının, dərindən öyrənilməsinə, Quranla bərabər İslamın ikinci əsas qaynağı olan Sünnənin – hədislər toplusunun daha geniş kütlələr tərəfindən Ana dilimizdə oxunub başa düşülməsinə səbəb olmasını bir olan Allahdan arzu edirəm.

**Fərahim Sələfi**

# Oruc[1]

**{&}** 920-) Əbu Hureyrədən (A. o. r.) rəvayət edilir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) buyurmuşdur: ***"Oruc qalxandır[2].*** *(Oruc tutan)* ***pis söz danışmaz[3], cahil kimi davranmaz[4]. Əgər biri onunla mübahisə edər və ya onu söyərsə, o iki dəfə "mən orucam" desin. Canım əlində olan Allaha and olsun ki, oruc olan bir adamın ağzının qoxusu Allah yanında müşk qoxusundan daha gözəldir.***

(Allah belə buyurur: "Qulum) **Mənə görə yeməyindən, içməyindən və şəhvətindən əl çəkir. Oruc mənim üçündür [5], onu Mən dəyərləndirirəm. Əvəzində savabı on qat artar".**

**&** 921-) Səhldən (A. o. r.) rəvayət edilir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) buyurmuşdur: ***"Cənnətdə Reyyan deyilən bir qapı***

---

[1] Quranda deyilmişdir: "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!" (Bəqərə, 2/183) Tərc. F.S.

[2] Cəhənnəm odundan qorunma nəzərdə tutulur. F.S.

[3] Burada: ancaq oruc tutanın etməsinə yol verilməyən şeylər, məsələn, cinsi əlaqə, ümumiyyətlə yaramaz hərəkətlər, məs. söyüş söymək və s. nəzərdə tutulur. Tərc. F.S.

[4] Yəni, qışqırmır, özünü ötkəm aparmır və s. F.S.

[5] Bütün ibadətlər Allah xatirinə yerinə yetirilir, lakin oruc onların arasında xüsusi yer tutur. Ancaq təkcə Allaha məlumdur ki, insan həqiqətənmi oruca riayət edir ya yox. Ona görə də oruc üçün xüsusi mükafat verilir ki, bu da ancaq Allaha məlumdur.

***vardır. Qiyamət günü bu qapıdan oruc tutanlar girəcəklər, onlardan başqa heç kim girə bilməz. "Oruc tutanlar haradadır?" – deyiləcək. Onlar da ayağa qalxacaqlar. Onlar bu qapıdan girəndən sonra qapılar bağlanacaq və sonra bir daha heç kim girə bilməyəcək".***

**{&}** 922-) Əbu Hureyrədən (A. o. r.) rəvayət edilir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) buyurmuşdur: ***"Kim iki nəfəri öhdəsində saxlayarsa, cənnət qapılarından: "Ey Allahın qulu, bu bir xeyirdir" – deyə səs gələr. Kim namaz qılandırsa, o, namaz qapısından çağırılır, kim cihad əhlidirsə, o, cihad qapısından çağırılır, kim oruc tutandırsa, o, Reyyan qapısından çağırılır, kim sədəqə verəndirsə, o da sədəqə qapısından çağırılır".*** Bunu eşidən Əbu Bəkr (A. o. r.) soruşdu: "Ey Allahın Elçisi, ata-anam sənə qurban, bu qapılardan çağırılan adamın həmin qapıdan keçməsi hökmənmi çətin olacaq? Bəs, kimsə bu qapıların hamısından çağırıla bilərmi?" ***"Əlbəttə, mən sənin onlardan olacağını bilirəm" –*** deyə buyurdu".

**&** 923-) Əbu Hureyrədən (A. o. r.) rəvayət edilir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) buyurmuşdur: ***"Ramazan gələndə cənnət qapıları açılır".***

**{&}** 924-) Əbu Hureyrədən (A. o. r.) gələn başqa bir rəvayətdə isə Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) buyurmuşdur: ***"Ramazan ayı girəndə göyün qapıları açılır, cəhənnəmin qapıları bağlanır, şeytanlar da zəncirə vurulur".***

925-) İbn Ömər (A. o. r.) demişdir: Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun): ***"(**Ayın**) hilalını görəndə[1] orucu tutun, təkrarən görəndə[2] isə artıq oruc tutmayın*** (bayram edin,) ***ancaq hava buludlu olarsa, Ramazan hilalını[3]*** (otuzuncu gün görmüş) ***kimi hesab edin"*** - deyə buyurarkən eşitdim".

926-) Əbu Hureyrə (A. o. r.) demişdir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) buyurdu: ***"Kim yalan sözdən əl çəkməzsə, onun yemək-içməyini buraxmasına• Allahın ehtiyacı yoxdur[4]".***

**&** 927-) Yenə də Əbu Hureyrə (A. o. r.) rəvayət edir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun): ***"Uca Allah*** **"Adəm oğlunun orucdan başqa bütün işlərinin bir qiyməti vardır. Amma orucun qiymətləndirilməsi Mənə məxsusdur, onu Mən qiymətləndirirəm" –** ***deyə buyurub.***

***Oruc bir qalxandır. Sizdən kimsə orucluq günü pis söz danışmasın, mübahisə edib dalaşmasın, əgər bir nəfər onunla savaşmaq və ya ona sataşmaq istəyərsə, ona: "Mən orucam"***

---

[1] Ramazan ayının əvvəlində çıxan ay nəzərdə tutulur. F.S.

[2] Burada söhbət şəvval ayının əvvəlində çıxan təzə aydan gedir. F.S.

[3] Yəni, Ramazanın əvvəlində təzə aya görə. Bu o deməkdir ki, hava buludlu olarsa, ramazanın əvvəlindən otuz gün saydıqdan sonra orucu bitirmək olar. F.S.

• Yəni oruc tutmasına ehtiyac yoxdur. Tərc. F.S.

[4] Allahın heç nəyə ehtiyacı olmadığı üçün bu sözləri hərfi mənada başa düşmək lazım deyil. Bu halda, Allahın belə adamın orucunu qəbul etməməsi nəzərdə tutulur. F.S.

***– desin. Məhəmmədin canı əlində olan Allaha and içirəm ki, oruc adamın ağzının qoxusu Allahın yanında müşk qoxusundan da gözəldir.***

***Oruc tutan adam iki dəfə sevinər: iftar açdığı anda və oruc olduğu halda Rəbbinə qovuşanda" –*** buyurdu.

928-) Abdullah b. Məsud (A. o. r.) demişdir: Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) ilə birlikdə idik. Buyurdu: ***"Kim evlənə bilirsə[1] evlənsin, çünki evlilik gözü haramdan[2] çəkindirir, namusu isə daha yaxşı qoruyur. Ancaq kim evlənmirsə[3], oruc tutsun. Çünki oruc şəhvəti kəsir".***

**{&}&** 929-) Abdullah bin Ömərdən (A. o. r.) rəvayət edilmişdir: Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) buyurmuşdur: ***"Ay iyirmi doqquz[4] gecədir. Ayı görməyincə[5] oruc tutmayın. Əgər hava buludlu olarsa, sayını otuzla tamamlayın".***

930-) Ümmü Sələmədən (A. o. r.) rəvayət edilmişdir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) bir ay zövcələrinin yanına girməyəcəyinə and içmişdi. İyirmi doqquz gün keçən kimi səhər-səhər və ya axşam çağı yanlarına gəldi. Ona: "Sən bir ay gəlməyəcəyinə and içmişdin?" O isə: ***"Ay iyirmi doqquz gün olur" –*** deyə buyurdu.

---

[1] Evlilik həyatının çətinliklərinin öhdəsindən gəlməyi bacarırsa. F.S.

[2] Yəni, kişinin gözünü haramdan və yad qadınlardan çəkinməyə kömək edir. F.S.

[3] Yəni, kim subaylığına görə zina etməkdən ehtiyat edirsə. F.S.

[4] Gecə-gündüz nəzərdə tutulur. F.S.

[5] Yəni, təzə Ayı. F.S.

**&** 931-) Əbu Bəkrdən (A. o. r.) rəvayət edilmişdir: Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) buyurmuşdur: ***"İki ay vardır ki,*** (sayları otuzdan az olsa da savabları) ***əskilməz: Bunların hər ikisi də bayram ayı olan Ramazan[1] və Zül-Hiccə[2] aylarıdır".***

**&** 932-) İbn Ömərdən (A. o. r.) rəvayət edilmişdir: "Allahın Elçisinin (ona Allahın salamı və salavatı olsun): ***"Biz oxumaq-yazmaq bilməyən bir millətik. Nə yazar, nə də hesablama apararıq*** (on barmağını üç dəfə göstərdi və) ***ay ya belədir*** (təkrar on barmağını üz dəfə göstərib, üçüncü dəfə doqquz barmağını göstərdi) ***ya da belədir" -*** deyə buyurdu və bu üsulla otuz və iyirmi doqquzu bildirdi".

**&** 933-) Əbu Hureyrədən (A. o. r.) rəvayət edilir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) buyurmuşdur: ***"Sizdən kimsə qətiyyən Ramazan orucunu bir və ya iki gün qabaq tutmasın. Ancaq kiminsə tutmuş olduğu orucu varsa[3], o həmin gün də tutsun".***

(Ramazandan bir gün əvvəl oruc tutmağın qadağan olması hüdudları Allah tərəfindən müəyyən edilən ibadətin sonradan yanlış olaraq bir adət halını alaraq öz hüdudlarını dəyişdirmədiyinə görədir. Çünki, belə olduqda nafilə ibadətlə fərz ibadət bir-biri ilə birləşərək fərz ibadətin həddini artırar və

---

[1] Allahın Peyğəmbərinin (ona Allahın salamı və salavatı olsun) bu iki sözünü (ramazan və zül-hiccə) şərhçilər fərqli izah edirlər.

[2] Ən geniş yayılmış şərh aşağıdakı kimidir: bu iki ay ərzində müsəlmanın etdiyi yaxşı əməllər, o ayların 29 və ya 30 gün olmasından asılı olmayaraq eyni dərəcədə mükafatlandırılır.

[3] Yəni, əgər bu günlər daimi oruc tutulan günlərə (məs. ayın ortasnda, bazar ertəsi, cümə axşamı və s.) düşmürsə.

dəyişdirər ki, bu da xristianların eynilə etdiyi kimi, oruc günlərini çoxaltmış olar. Umdetu-Kari, Ayni, XI. 24).

934-) əl-Bəra bin Əzib (A. o. r.) rəvayət etmişdir: "Məhəmmədin (ona Allahın salamı və salavatı olsun) səhabələrindən bir nəfər (orucun qaydası belə idi) oruc olduğu zaman iftar vaxtı çatanadək yatardısa, nə həmin gecə, nə də səhərisi gün axşama qədər bir şey yeməzdi. Ənsarlardan olan Qeys b. Sırmə (A. o. r.) oruc idi. İftar vaxtı çatanda arvadının yanına gəlib: "Yeyiləcək bir şeyin varmı?" – deyə soruşdu. Arvadı: "Yoxdur, amma sənə bir şey tapmağa gedərəm" – dedi. Həmin gün o işləyib (yorğun olmuş) və buna görə oradaca yuxuya getmişdi. Arvadı gəlib onu yatmış görüncə ona: "Ay yazıq!" demişdi. Ertəsi gün düz günorta çağı Qeys b. Sırmənin ürəyi getdi. Onun bu vəziyyəti haqqında Peyğəmbərə (ona Allahın salamı və salavatı olsun) xəbər verildi. Buna cavab olaraq: ***"Oruc gecəsi qadınlarınıza yaxınlaşmaq*** [1] ***sizə halal edildi. Onlar sizin, siz də onların libasısınız. (****Bir-birinizə həddindən artıq yaxınsınız****). Allah sizin özünüzə pislik (****xəyanət****) etdiyinizi (****yaxud nəfsinizə qarşı zəiflik göstərəcəyinizi****) bilib tövbələrinizi qəbul edərək sizi bağışladı; artıq siz onlara yaxınlaşın, Allahın sizə halal etdiyini onlardan istəyin;..."*** (Bəqərə, 2/187) ayəsi nazil oldu. Ayənin nazil olmasına səhabələr çox sevindilər. Ardı ilə də: **"Sübh açılınca, ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib için..."**[2] (Bəqərə, 2/187) ayənin digər parçası nazil edildi".

[1] Bəqərə, 2/187.

[2] Bəqərə, 2/187.

**&** 935-) Adiy b. Xatim (A. o. r.) demişdir: **"Sübh açılınca, ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib için..."** (Bəqərə, 2/187) ayəsi nazil olan kimi bir qara və bir ağ cilov[1] götürüb balışımın altına qoydum və gecə onlara baxmağa başladım. Amma onlar aydın görülmürdü. Səhər-səhər Allahın Elçisinin (ona Allahın salamı və salavatı olsun) yanına gedib vəziyyəti ona danışdım. O isə: ***"Bu, qara sapla ağ sap - gecənin qaranlığı ilə gündüzün işıqlanmasıdır"***[2] **–** deyə buyurdu.

936-) Zeyd b. Sabit (A. o. r.) demişdir: "Peyğəmbərlə (ona Allahın salamı və salavatı olsun) birlikdə obaşdan yeməyi yedik və sonra namaz qıldı. (Ənəs b. Malik soruşur:) "Obaşdanla[3] azan arasında nə qədər vaxt var idi?" "Əlli ayə (oxunuşu) qədər" – cavabını vermişdir.

(Yemək-içməyin kəsildiyi vaxt, sübh namazının girdiyi vaxt hesab edilən həqiqi fəcrin başlanğıcı, yəni dan yerinin sökülməsi vaxtına müvafiqdir. Bu müddətdən başlayaraq Günəşin doğmasına qədər sübh namazı qılına bilər. Ancaq bu hədisdə əlli ayə qədər bir müddətdən sonra namaz qılındığı bildirilmişdir. Bu isə sübh namazının hava açılıncaya qədər qılındığını göstərir. Digər tərəfdən, sübh namazı dan yerinin sökülməsinin başlanğıcında qaranlıqda da qılına bilər. 347-ci hədisə baxın.)

**&** 937-) Ənəs b. Malik (A. o. r.) demişdir: "Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) buyur-

---

[1] Dəvələrin ayaqlarını buxovlamaq üçün istifadə edilən cilov nəzərdə tutulur.

[2] Başqa sözlə desək, ağ və qara sap ifadəsi sitat gətirilən Quran ayəsində gecə və gündüzün təşbeh formasında verilməsidir və onu belə başa düşmək lazımdır ki, şəfəq açılanda səhərin gecəni dəyişməsinə əmin oluncaya qədər yeyin-için. F.S.

[3] Obaşdan (suxur) - ramazan ayında səhər açılanadək müsəlmanın yeyə biləcəyi sonuncu yemək vaxtıdır. F.S.

muşdur: ***"Obaşdan yeməyi yeyin. Çünki obaşdan yeməyində bərəkət vardır".***

(Obaşdan vaxtı Allahın duaları qəbul etdiyi bərəkətli bir vaxtdır. 606-cı hədisdə gecənin sonuna doğru Allahın yaxın səmaya təşrif gətirdiyini, dualara cavab verdiyini bilirik. Bəlkə də dualara bərəkət buradan gəlir. Ayrıca olaraq, obaşdan yeməyi oruca dözməyə qüvvət verir, bu da maddi bərəkət sayılır. Bir hədisdə "Gündüz tutacağınız oruc üçün obaşdan yeməyindən, gecə qılacağınız namaz üçün isə günorta yuxusundan istifadə edin" – deyə buyurulmuşdur. (İbn Macə, Siyam, 22. Hədisin sənədində zəif ravi vardır.)

**&** 938-) Sələmə b. əl-Əkvadan (A. o. r.) rəvayət edilir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) Aşura günü bir nəfəri göndərmişdi ki: ***"Kim yeməyini yeyibsə*** (sonrakı qalan vaxtda orucunu) ***tamamlasın[1] və ya oruc tutsun. Kim bir şey yeməyibsə, bundan sonra da yeməsin".*** – deyə, camaata bildirsin.

(Ramazan orucu məcburi (fərz) olduğuna görə Aşura orucunun tutulması könüllü olmuşdur. 970-ci hədisə baxın.)

**&** 939-) Aişə (A. o. r.) ilə Ümmü Sələmədən (A. o. r.) rəvayət edilmişdir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) zövcəsinə yaxınlaşdığına görə cünub olduğu zaman fəcr namazının vaxtı çatdıqda, qüsl edib orucunu davam etdirərdi.

**{&}** 940-) Aişə (A. o. r.) demişdir: "Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) oruc olduğu zaman zövcəsini öpər, bədəni bədəninə toxunacaq qədər ona

---

[1] Yəni sonrakı vaxtı yeməyib oruc tutsun (bu gündüz başlanılan oruca nümunədir). F.S. Burada söhbət günorta vaxtına qədər nafilə - könüllü oruc tutmağa başlamaqdan gedir. F.S.

yaxınlaşar, amma nəfsinə sizdən daha möhkəm sahib olardı”.

**&** 941-) Əbu Hureyrədən (A. o. r.) rəvayət edilmişdir: “Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) buyurmuşdur: ***"Oruc olduğunu unudaraq yeyib-içən orucunu tamamlasın, çünki onu Allah yedirib-içirmişdir”.***

**{&}** 942-) Əbu Hureyrədən (A. o. r.) rəvayət edilmişdir: “Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) yanında əyləşdiyim vaxt bir nəfər gəlib: “Ey Allahın Elçisi, həlak oldum.” – dedi. Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun): ***"Sənə nə olub?"*** - deyə ondan soruşdu. O: “Oruc olduğum vaxt arvadıma yaxınlaşdım”. – dedi. Buna cavab olaraq Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun): ***"Azad edə biləcəyin bir kölə tapa bilərsənmi?"*** - deyə ondan soruşdu. O: “Xeyir” – dedi: ***"Arasını kəsmədən iki ay oruc tuta bilərsənmi?" –*** buyurdu. O: “Xeyir” – dedi. ***"Altmış kasıbı doyuzdura biləcək bir şey tapa bilərsənmi?" –*** deyə yenə buyurdu. O: “Xeyir” – dedi. Bu cavabdan da sonra Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) bir müddət dinmədi. Biz də beləcə gözlədiyimiz halda Peyğəmbərə (ona Allahın salamı və salavatı olsun) içi xurma ilə dolu (təxminən 45-50 kiloluq) bir zənbil gətirildi. Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun): ***"Sual verən hardadır?" –*** deyə buyurdu. O da: “Buradayam” – dedi. Peyğəmbər (ona Allahın salamı və salavatı olsun): ***"Bunu götür, sədəqə kimi payla" –*** deyə buyurdu. Həmin adam: “Ey Allahın Elçisi, məndən daha kasıb olanamı verim? Allaha and olsun ki, (iki daşlıq arasında yerləşən Mədinəni

nəzərdə tutaraq) bu iki dağ arasında mənim ailəmdən kasıb ailə yoxdur" – dedi. Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) buna yan dişləri gürünənə qədər güldü və: ***"Tez ol, get ailənə yedir"*** **-** deyə buyurdu.

(Hədisdə keçən zənbil (= arak) xurma yarpaqlarından hörülmüş bir növ səbətdir. Miktel kimi adlandırılmışdır. Miktel 15 sa şey tutan səbətdir. Bir sa-nı təxminən 3 kilo kimi qəbul etsək, 45 kq tutan bir zənbil olur.)

943-) İbn Abbasdan (A. o. r.) rəvayət edilmişdir ki, Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) həcdə ehramlı olduğu zaman oruc halında qan aldırmışdır.

(Qan alma məlum üsullarla bədənin müəyyən yerlərindən qan çıxartmaqdır. Qan alma haqqında 1964-cü hədisin izahına baxın.)

**&** 944-) İbn Əbi Əvfa (A. o. r.) rəvayət edir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) ilə birlikdə səfərdəydik (və oruc tutmuşduq). Bu vaxt kiməsə: ***"Miniyindən düş və mənə xurma şirəsi hazırla!"*** – deyə buyurdu. O isə: "Ey Allahın Elçisi, Günəşə bax!" – dedi. Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) təkrarən: ***"Tez düşüb mənə xurma şirəsi hazırla!"*** **–** buyurdu. O isə: "Ey Allahın Elçisi, Günəşə bax!" – dedi. Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun): ***"Düş mənə xurma şirəsi hazırla!" –*** buyurdu. Buna görə o, miniyindən düşüb xurma şirəsi hazırladı. Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) şirəni içdikdən sonra əli ilə şərq tərəfə işarə edərək: ***"Oradan gecənin gəldiyini görsəniz oruc tutan şəxs iftar edə bilər."*** – deyə buyurdu.

**{&}** 945-) Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) zövcəsi Aişə (A. o. r.) rəvayət edir:

"Həmzə b. Əmr əl-Əsləmi çox oruc tutardı. Peyğəmbərə (ona Allahın salamı və salavatı olsun): "Səfərə çıxdıqda da oruc tuta bilərəmmi?" – deyə soruşdu. O isə: ***"İstəsən oruc tut, istəməsən tutma"*** **–** buyurdu.

**{&}** 946-) İbn Abbasdan (A. o. r.) rəvayət edilir: "Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) Ramazanda Məkkəyə səfərə çıxdı (Məkkə ilə Mədinə arasında) əl-Kədid mövqeyinə çatıncaya qədər oruc tutdu. (Ancaq burada ona daha ehtiyac qalmadığına görə günortadan sonra) orucu pozdu. Oradakı camaat da oruclarını pozdular. Oradakı camaat da oruclarını pozdular.

(Hədisin bir başqa variantı olan 1657-ci hədisə baxın.)

**&** 947-) Əbüddərda (A. o. r.) rəvayət edir ki: "Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) ilə birlikdə bir səfərdə bərk isti bir gündə yola çıxdıq. İsti o dərəcədə şiddətli idi ki, bir nəfər əli ilə başını örtmüşdü. Bu istidə Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) ilə Abdullah b. Rəvahandan başqa bizim heç birimiz oruc tutmamışdı.

**&** 948-) Cabir b. Abdullah (A. o. r.) rəvayət edir ki: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) bir səfərdə üstünə kölgə salınmış bir nəfərin yanında çoxlu adamların yığışdığını gördü: ***"Bu nədir belə?"*** **–** deyə soruşdu. Onlar: "Oruc tutub..." – cavabını verdilər. Buna: ***"Səfərdə*** (bu tərzdə) ***oruc tutmaq yaxşı deyil."*** **–** deyə buyurdu.

**{&}** 949-) Ənəs b. Malik (A. o. r.) demişdir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) ilə

birlikdə səfərdəydik. Nə oruc tutan tutmayanı məzəmmət edər, nə də oruc tutmayan tutanı danlayardı".

**&** 950-) Aişədən (A. o. r.) rəvayət edilmişdir: "Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) buyurmuşdur: ***"Kim üstündə oruc borcu olduğu halda vəfat edərsə, onun yerinə yaxını oruc tutar".***

(Üstündə oruc borcu qaldığı halda ölən adamın yerinə qohumunun oruc tutması barəsində fikir ayrıseçkiliyi mövcuddur. Bəzi alimlər deyirlər ki, istənilən şəkildə olursa olsun, qohumu ölənin əvəzinə oruc tuta bilər. Bir qrup digər alimlər isə xatırlanan orucun Ramazan orucu deyil, niyyət tutulmuş əlavə oruclara aid olduğunu iddia edirlər. Əbu Davud bu hədisi xatırlatdıqdan sonra, "Bu niyyət orucu haqqındadır" demişdir. (Əbu Davud, Sıyam, 41)

İmam Əzəmə, İmam Malikə, Sufiyan Sevriyə (, ən son baxışlarına uyğun olaraq İmam Şəfiyə) görə ölən adam üçün başqası oruc tuta bilməz. Bu ibadət bədənin iştirakı ilə edilən ibadətdir. Başqasının əvəzinə onun ibadət borcunu yerinə yetirmək namazda olmadığı kimi, orucda da ola bilməz deyilib. Onlara görə, "hədisin məqsədi ondan ibarətdir ki, əgər ölən şəxs oruc borcunun ödənilməsi üçün vəsiyyət etmişdirsə, ölünün əvəzinə qohumları onun vəsiyyətini yerinə yetirə bilərlər". (Umdetul-Kari, IV, 124)

Hədisi rəvayət edən Aişədən (A. o. r.) ölən adam üçün Ramazan orucu tutulub-tutulmayacağı barədə soruşulduqda, o şəxsən: "Xeyir, ancaq onun üçün hər günə görə kasıblara sədəqə verin." – demişdir (Təhavidən rəvayət edilən Umdətul-Kari, IX, 124). Buna oxşar nəzər nöqtəsi İbn Abbasdan (A. o. r.) rəvayət edilir (Əbu Davud, Savm, 41). Yenə də bu baxış İbn Ömərdən (A. o. r.) Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) kəlamı kimi rəvayət edilmişdir (Tirmizi, Savm, 23). Ancaq Tirmizi bu sözün, həqiqətdə, İbn Ömərə məxsus olduğunu deyir.

Təhavi və Nəsainin Sünəni-Kübrada rəvayət etdiyi və Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) səhih qəbul edilən ***"Kimsə kimsənin yerinə oruc tuta bilməz, kimsə***

***kimsənin yerinə namaz qıla bilməz"*** formasındakı hədisi yuxarıda şərh etdiyimiz hədisə ziddir (Nasbur-Raye, II, 463; Umdetul-Kari, IX, 124). Bədrəddin Ayni buna əsaslanaraq yuxarıdakı hədisə mənsux edilmiş hədis kimi yanaşması, hədisin ravisi olan Aişənin (A. o. r.) şəxsən özünün hədisin əksinə fitva verməsi onun nəzərində hədisin mənsux olduğuna sübutdur. İmam Malik bu barədə demişdir: "Mədinədə nə səhabələr və nə də tabeinlərin heç birindən: "Bir adamın başqası üçün oruc tuta biləcəyini" eşitməmişəm. Başqasının yerinə namaz da qılına bilməz. Bunu hər kəs özü üçün edir, başqası üçün edə bilməz" (Nasbur-Raye, II, 463).

Uca Allah buyurmuşdur: **"Hər kəsin qazandığı günah ancaq özünə aiddir. Heç bir günahkar başqasının günahını daşımaz..."** (Ənam, 6/164); **"...Siz ancaq (**dünyada**) törətdiyiniz əməllərin cəzasını çəkəcəksiniz!"** ***(Təhrim, 66/7)*****.** Buna görə, alimlərimizin bir hissəsi bu ayələrə istinad edərək ölənin ardıyca onun əvəzinə oruc tutmağa çox da isti yanaşmayıblar. Ancaq ölüyə savab bağışlamaq üçün hər cür savab etmək olar. Lakin ölən hələ bu dünyada olarkən oruc tutan, namaz qılan adamlardan olmadığı halda onun əvəzinə sonradan oruc tutmaq – hazırın naziri olmağa bərabərdir. İbadətdə əsas norma – ibadətin hər adamın özü tərəfindən istənilən formada və vaxtda yerinə yetirilməsidir.

Ölən adamın olan mükəlləfiyyətini azaltmaq gözəl bir işdir. Ancaq bu yaxşı əməl heç də insanları tüfeyli həyatı sürməyə şirnikləndirməməlidir. Bu günümüzdə olduğu kimi, sifariş verib ad günlərini keçirməklə vaxt itirməkdənsə və Allah xatirinə etməyə borclu olduqları ibadəti gecikdirməkdənsə, bunun axırının necə olacağını düşünmək daha faydalı olardı. Qoy heç kim özünü aldatmasın. İbadət fərdidir. Hər kəs öz ibadətinə görə məsuliyyət daşıyacaqdır.

Xülasə kimi qeyd edim ki, açıqlamağa çalışdığımız hədisi bütün çılpaqlığı ilə anlamağa cəhd göstərmək bir sıra yanlışlıqlara yönəldə bilər. Ölən adam tutmadığı orucları ölməmişdən əvvəl vəsiyyət edərsə, onun əvəzində malından fidiyə verilir. Vəsiyyət etməmişdirsə, qohumları istərsə, onun əvəzinə fidiyə paylaya bilərlər. İbadətləri qəbul edən Allahdır, istədiyi ibadəti qəbul edər, istəmədiyini rədd etməyə güc Ondadır.)

**&** 951-) İbn Abbas (A. o. r.) rəvayət edir: "Bir nəfər Allahın Elçisinin (ona Allahın salamı və salavatı olsun) yanına gəlib soruşdu: "Ey Allahın Elçisi, anam bir aylıq oruc borcu ilə vəfat etdi. Mən onun yerinə (orucunu) ödəyə bilərəmmi?" O isə: ***"Allaha olan borc – ödənməyə ən layiq olanıdır".***

(Bu hədisdə ölən bir adamın oruc borcu vardısa, onun əvəzinə orucun ödənilə biləcəyi bildirilir. Lakin ödəniləcək borcun oruc tutmaqla deyil, ölənin orucu əvəzinə fidiyə paylamağın yerinə yetirilməsi əvvəlki hədisin şərhində bildirilmişdi.)

952-) Abdullah b. Əbi Əvfa (A. o. r.) rəvayət edir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) ilə birlikdə yola çıxmışdıq. O oruc tutmuşdu. Günəş batarkən (Bilala): ***"Miniyin düşüb bizə xurma şirəsi hazırla" –*** deyə buyurdu, o isə: "Ey Allahın Elçisi, bəlkə axşamın düşməsini bir az da gözləyəsən?" – dedi. Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun): ***"Miniyin düşüb bizə xurma şirəsi hazırla" –*** deyə buyurdu, o isə yenə: "Ey Allahın Elçisi, hava hələ işıqlıdır axı" söylədisə də: ***"Düş, bizə xurma bizə xurma şirəsi hazırla" –*** deyə təkrar buyurdu və Bilal da düşüb xurma şirəsini hazırladı. Sonra Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) şərq tərəfə işarə edərək: ***"Gecənin bu tərəfdən gəldiyini gördüyümüz halda oruc olan iftar edə bilər". –*** buyurdu.

(Hədisin bir variantı yuxarıda 944-cü hədisdə keçir.)

**{&}** 953-) Səhl b. Səiddən (A. o. r.) rəvayət edir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) buyurmuşdur: ***"İnsanlar vaxtında iftar edəndə daima xeyir içində olurlar".***

954-) Əsma bint Əbu Bəkr (A. o. r.) demişdir: Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) dövründə buludlu bir gündə iftar etdik. Amma sonra Günəş təkrar göründü".

(Hədisin Buxaridəki ardında ravi: "Qəza etmələrinə əmr verildimi?" sualına, o: "Bəs qəzası olmayacaqdımı" – deyə cavab vermişdir.)

**&** 955-) Rübeyyi bint Muavviz (A. o. r.) rəvayət edir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) aşura gününün səhəri: ***"Kim oruc tutmadan səhəri açmışsa, sonraya qalan günlərini oruc tutaraq tamamlasın. Səhəri oruclu açan isə orucunu davam etdirsin"*** – deyə, ənsar kəndlərinə xəbər göndərdi. Bundan sonra, biz oruc tutar, uşaqlarımıza da oruc tutdurardıq, onlara rəngli yundan oyuncaqlar düzəldər, yemək üçün ağlayanda bu oyuncaqları verirdik və beləcə iftar vaxtına kimi ovunurdular.

(Hədisin bir variantı 938-ci hədisdir. Ramazan orucu fərz olduğuna görə, aşura orucunun tutulması arzu ediləndir. 970-ci hədisə baxın.)

956-) Əbu Səid əl-Xudri (A. o. r.) demişdir: "Allahın Elçisini (ona Allahın salamı və salavatı olsun): ***"Orucu pozmadan ertəsi günün orucuna davam etməyin. Sizdən kimsə orucunu pozmadan tutmaq istəyirsə, onu obaşdana qədər tutsun"***[•] – deyə buyurarkən eşitmişəm.

---

[•] Bu hədisdə "...obaşdana qədər tutsun" ifadəsi ona dəlalət edir ki, ya iftar, ya da obaşdan yeyilmədən ikinci (və sonrakı) gün oruc tutmaq olmaz. Tərc. F.S.

**{&}** 957-) Əbu Hureyrə (A. o. r.) demişdir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) orucu pozmadan, dalbadal iftarsız tutmağı qadağan etdi. Buna görə müsəlmanlardan bir nəfər ona: "Ey Allahın Elçisi, axı sən orucunu pozmadan tutursan" – dedi. O isə buyurdu: ***"Sizin hansı biriniz mənim kimi ola bilər? Mən, Rəbbim məni yedirib-içirib doydurmuş halda gecələyirəm".*** Buna baxmayaraq onlar bu şəkildə orucu pozmadan tutmağa davam etdilər. Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) onlarla birlikdə bir gün iftarsız oruc tutdu, sonra bir gün də iftarsız oruc tutdu; nəhayət ayın hilalını gördülər. Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) bununla əlaqədar bu cür oruc tutmamağı söylədiyi halda oruca davam etmələrinə diqqət yetirərək xəbərdarlıq üçün buyurmuşdu: ***"Əgər hilal geciksəydi, bu cür oruc tutmağı artırardım".***

Əbu Hureyrədən (A. o. r.) rəvayət edilən bir hədisdə isə Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) buyurmuşdur: ***"Mən, Rəbbim məni yedirib-içirib doydurduğu halda gecələyirəm. Siz görə biləcəyiniz işin altına girin".***

958-) Əbu Cuhayfə (A. o. r.) demişdir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) Salman ilə Əbu Dərdanı qardaş elan etdi. Bir dəfə Salman Əbu Dərdaya qonaq gələn zaman arvadı Ümmüdərdanı bəzəkli paltarlarını çıxarıb köhnə paltar geyinmiş halda gördü və ondan: "Bu nə haldır?" – deyə soruşdu. O isə: "Qardaşın Əbu Dərdanın bu dünyada bir ehtiyacı yoxdur" dedi. Bu zaman Əbu Dərda da gəldi. Salmana yemək hazırladı. Salman: "Sən də ye" – dedi. Dərda: "Mən orucam" – dedi. Salman: "Sən yeməsən, mən də

yeməyəcəyəm” – dedi. Bu təkidə görə Əbu Dərda yedi. Gecə olduqda Əbu Dərda gecə namazına qalxmaq istədi. Salman: “Hələ yat” dedi, o da yatdı. Sonra yenə də qalxmağa cəhd etdi. Salman: “Hələ yat” dedi. Gecənin axırı çatdıqda Salman: “Tez ol, indi qalx!” - dedi və birgə namaz qıldıqdan sonra Salman Əbu Dərdaya dedi: “Şübhəsiz ki, Rəbbinin sənin üstündə haqqı var, öz nəfsinin də sənin üstündə haqqı var, ailənin də sənin üstündə haqqı var, haqq sahibinə haqqını ver!” Əbu Dərda Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) yanına gələrək ona Salmanın dediklərini söylədi. “Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) buyurdu: ***"Salman doğru demişdir".***

**{&}** 959-) Aişə (A. o. r.) demişdir: ""Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) belə oruc tutardı ki, elə bilərdik ki, fasilə verməyəcək. Bəzən də oruca o qədər ara verərdi ki, deyərdik ki, artıq oruc tutmayacaq. “Allahın Elçisini (ona Allahın salamı və salavatı olsun) Ramazan ayndan başqa bir ayda tam oruc tutduğunu görməmişəm. Şaban ayındakı qədər çox oruc tutduğunu da görməmişəm.

(Hədisin bir variantı 603-cü hədisdir.)

**&** 960-) Yenə də Aişə (A. o. r.) demişdir: “Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) heç bir ayda Şaban ayından çox oruc tutmazdı (bəzi illərdə isə) bütün Şaban ayını oruc tutardı. Özü belə buyurardı: ***"Görə biləcəyiniz işə girişin. Şübhəsiz ki, siz bezikər, usanarsınız, lakin Allah bezib usanmaz".*** Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) ən çox sevdiyi namaz, onu qılanın, az da olsa, həmişə qıldığı

namazdır. O (ona Allahın salamı və salavatı olsun) da həmişə qılmağı xoşladığı namazı qılardı.

(Hədisin fərqli variantları 40 və 2102-ci hədislərdir.)

961-) Ənəsdən (A. o. r.) rəvayət edilir: "Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) oruc olması barədə soruşduqda, o demişdir: "Onu oruc tutan görmək istədiyim bir ayda, onu qəti oruc tutan, oruc tutmamış kimi görmək istədiyim vaxtda isə qətiyyən oruc tutmayan kimi görərdim.

Yenə (Peyğəmbəri (ona Allahın salamı və salavatı olsun) gecə namaz qılınan vaxtda onu namaz qılan görmək istədiyim zaman, hökmən onun namaz qıldığını görər, yatdığını görmək istədiyim halda da yatmış olduğunu görərdim.

Allahın Elçisinin (ona Allahın salamı və salavatı olsun) əlindən də yumşaq nə bir ipəyə, nə də bir pərquya toxunmamışam. Allahın Elçisinin (ona Allahın salamı və salavatı olsun) ətrindən də təravətli nə bir qoxu, nə müşk, nə də bir ətir iyləməmişəm" – deyə Ənəs bildirmişdir.

(Hədisin qısa bir variantı 603-cü hədisdir.)

**&** 962-) Abdullah b. Əmr b. əl-As (A. o. r.) rəvayət etmişdir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) mənə buyurdu ki: ***"Ey Abdullah, sənin gecələri həmişə namaz qılan, gündüzləri isə uzun müddət oruc tutduğun mənə bildirilməyibmi?"*** Mən də: "Bəli, elədir, ey Allahın Elçisi" – deyə cavab verdim. ***"Belə etmə, ara verərək oruc tut, həm gecə namazı qıl, həm də yat. Çünki bədəninin səndə haqqı var, gözünün səndə haqqı var, zövcənin səndə haqqı var, qonağının***

***səndə haqqı var. Hər ay üç gün oruc tutmaq sənə bəsdir. Çünki hər bir savab on misillidir, bu da sənə bir ilin orucu kimi savab olar".*** Mən çox olmasını istədikcə, mənə artırıldı. Mən də dedim: "Ey Allahın Elçisi, bunlardan daha çox etməyə gücüm var". ***"Allahın Peyğəmbəri Davud*** (ə. s.) ***kimi oruc tut, ona əlavə artırma" –*** deyə buyurdu. Mən isə: "Allahın Peyğəmbəri Davudun (ə. s.) orucu nə qədər idi?" – deyə soruşdum. ***"İlin yarısı qədər". –*** buyurdu.

Abdullah (A. o. r.) artıq yaşlandığı zaman: "Kaş ki, Allahın Elçisinin (ona Allahın salamı və salavatı olsun) asan olması üçün mənə verdiyi imkanı qəbul edəydim" – deyərdi.

**&** 963-) Yenə də Abdullah b. Əmrdən gələn digər bir hədisdə deyilir: "(Peyğəmbər): ***"Davudun*** (ə. s.) ***orucu kimi oruc tut. O bir gün oruc tutar, o biri gün tutmazdı. O düşmənlə üz-üzə gələndə də qaçmazdı" –*** buyurdu, mən isə: "Ey Allahın Peyğəmbəri, bu gözəl sifətləri mənə kim qazandıra bilər?" – deyə ondan soruşdum. (Söhbətin axırında) "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) iki dəfə: ***"Bütün ili oruc tutan – oruc tutmamışdır" –*** buyurdu".

(Hədisin bir variantı olan 1821-ci hədisə baxın.)

964-) Ənəs (A. o. r.) rəvayət edir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) anam Ümmü Süleymin yanına gəldi. O da xurma və kərə yağı gətirdi. "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun): ***"Yağınızı tuluğuna, xurmanızı qabına boşaldın, çünki mən orucam".*** – deyə buyurdu. Sonra evin bir küncünə

çəkilib nafilə namaz qıldı, Ümmü Süleym və ailə üzvləri üçün dua etdi. Bundan sonra Ümmü Süleym dedi: "Ey Allahın Elçisi, kiçik xidmətçin üçün bir dua etməyini istəyirəm". ***"O kimdir? –*** deyə buyurdu. Ümmü Süleym: "Xidmətçin Ənəs üçün" – dedi. "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) mənim üçün bu dünyada və axirətdə xeyirli nə varsa dua etdi: ***"Allahım, ona var-dövlət və övladlar bəxş et və onları onun üçün bərəkətli et" –*** deyə buyurdu. Şübhəsiz ki, mən ənsarlardan var-dövlət tərəfdən ən zənginiyəm. Qızım Ümeyyə mənə Həccacın Bəsrəyə gəldiyi zaman (h. 75-ci ildə) şəxsən mənim uşaqlarımdan yüz iyirmi nəfərinin torpağa basdırıldığını bildirdi".

(Bu duanın bərəkəti ilə Ənəs (A. o. r.) yüz yaşına yaxınlaşdığı vaxtda vəfat etmişdir. Uşaqları o qədər çox idi ki, şəxsən həyatda olduğu vaxtlarda onlardan ölənlərinin sayı, təkcə Həccac Bəsrəyə gəldikdə yüz iyirmi nəfərmiş.)

**&** 965-) İmran b. Hüseyn (A. o. r.) rəvayət edir: ""Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) bir nəfərə: ***"Ey filankəsin atası, bu ayın sonunda oruc tutmuşdunmu? –*** deyə ona sual vermiş, (İmran (A. o. r.) da bunu eşidirmiş,) həmin adam: "Xeyir, ey Allahın Elçisi" – cavabını vermişdir. ***Elə isə, Ramazan çıxan kimi, onun yerinə iki gün oruc tut" –*** deyə buyurmuşdur.

Ondan nəql edilən bir başqa hədisdə yuxarıdakı ifadə: ***"Şabanın sonunda oruc tutmuşdunmu? –*** formasındadır.

(933-cü hədisdə Ramazandan bir-iki gün qabaq oruc tutma qadağan edilmişdir. Ancaq kimin ki, hər ayın sonunda oruc tutmaq adəti varsa, ona güzəştə gedilir. Peyğəmbərimizin (ona Allahın salamı və salavatı olsun) hər ayın sonunda oruc tutması adəti olduğu üçün barəsində bəhs edilən səhabəsindən Ramazan

ayından əvvəl oruc tutub-tutmamasını soruşmuşdur. Ramazanı qarşılamaq üçün oruc tutmasını soruşmaq məqsədi olmamışdır.)

**&** 966-) Cabirdən (A. o. r.): ""Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) cümə günü oruc tutmağı qadağan etmişdirmi?" soruşanda: ""Bəli" – cavabını vermişdir.

967-) Cüveyriyə bint Xarisdən (A. o. r.) rəvayət edilir: "Bir cümə günü o oruc ikən "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) yanına gəlir və soruşur: ***"Dünən oruc tutmuşdunmu?"*** O isə: "Xeyir" deyir. "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun): ***"Sabah oruc tutmağı düşünürsənmi?"*** soruşmuş, o yenə də: "Xeyir" demişdir. Belə olduqda: ***"Elə isə orucunu poz" –*** deyə buyurmuşdur.

968-) Aişədən (A. o. r.): "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) gününün bir hissəsini hər hansı bir şeyə həsr edərdimi?" – deyə soruşmuşlar, o da: "Xeyir, onun gördüyü iş davamlı olardı. Sizin hansı biriniz "Allahın Elçisinin (ona Allahın salamı və salavatı olsun) gördüyü işi görə bilər axı!? – demişdir.

(Əslində "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) bəzi işlərini müəyyən günlərə həsr edərdi. Aşura günü, Bazar ertəsi, cümə axşamı orucları kimi. Həmin oruclar müəyyən günlərə həsr olunmuşdur. Yuxarıdakı hədisin bu deyilənlərə əks olduğunu görürük. Bu məsələni alimlərimiz belə izah etmişlər: "Yuxarıda Aişə (A. o. r.) validəmizə verilən suallar hər ayın əvvəlində və axırında tutulan nafilə oruclar və ya Şəvval ayında altı gün tutulan orucun müəyyən günlərə məxsus olmasını bilmək üçün soruşmuşlar və o da belə cavab vermişdir.)

969-) Aişə və İbn Ömər (A. o. r.) demişlər: "Həcdə qurban kəsilməsi lazım olduğu halda kəsmə-

yənlərdən başqa, təşrik günlərində (Qurban bayramının 2, 3 və 4 günləri) oruc tutmağa icazə verilməmişdir".

**{•}** 970-) Aişə (A. o. r.) demişdir: "Cahiliyyə dövründə qureyşilər aşura günü oruc tutardılar. "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) də aşura günü oruc tutardı. Mədinəyə gəldikdən sonra da bu orucu tutmuş və tutulmasını əmr etmişdir. Axırda ramazan orucu fərz olduqdan sonra aşura günü orucunu (həmişə) tutmağı tərk etdi. Artıq kim istəyirsə tutsun, istəmirsə tutmasın".

(Hədisin bir variantı 805-ci hədisdədir. Məlum olduğu kimi, İbrahim əleyhissalam Məkkədə Allahın dinini təsis etmiş və onun tələblərini izah etmişdir. Sonralar dində sapmalar baş vermişdir. (1351-ci hədisin şəri ilə 1468-ci hədisin şərhinə baxın.) Dində nə qədər sapmalar olsa da bəzən bir sıra səthi əsaslar da mövcud olmuşdur. Bu hədisdən bizə aydın olan oruc və aşura orucunun İslamdan əvvəl də olduğunu göstərir. Quranda orucun bizdən əvvəlki xalqlara da fərq olunduğu bildirilir. (Bəqərə, 2/183). Lakin həmişə olduğu kimi orucda da bəzi sapmalar olmuş, keyfiyyəti və yerinə yetirilməsində dəyişikliklərə məruz qalmışdır.)

**&** 971-) İbn Abbas (A. o. r.) demişdir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) Mədinəyə gələndə yəhudilərin oruc tutduğunu gördü və: ***"Bu nədir?"*** - deyə sual verdi. Onlar: "Bu, xeyirli bir gündür, Allahın İsrail oğullarını düşmənlərindən qurtardığı bir gündür. Bu səbəbə görə Musa həmin gün oruc tutmuşdur" dedilər. "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun): ***"Mən Musaya sizdən daha çox***

***yaxınam" –*** deyə buyurdu və həmin gün həm özü oruc tutdu, həm də oruc tutulmasını əmr etdi."

**Bismilləhir-Rahmənir-Rahim**

## 31-) Təravih namazı bölümü

**{•}** 972-) Aişədən (A. o. r.) rəvayət edilmişdir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) bir gecə gecənin tən yarısında qalxıb məsciddə namaz qıldı. Bəzi adamlar da onunla birlikdə namaz qıldılar, səhər olunca isə bu barədə öz aralarında danışdılar, ertəsi gecə isə əvvəlkindən də daha çox adam yığışaraq Peyğəmbərlə namaz qıldılar, səhər olan kimi yenə öz aralarında bu namazı müzakirə etdilər. Sonra üçüncü gecə məscid camaatı olduqca artdı. Yenə də Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) qalxıb namaz qıldı. Onlar da onunla birgə namaz qıldılar. Dördüncü gecə olduqda camaat məscidə yerləşmədi, axırda Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) sübh namazına qədər camaatın yanına çıxmadı. Sübh namazını qılıb qurtardıqdan sonra camaata tərəf çevrildi, şəhadət kəlməsini dedi və ardıyca: ***"Bundan sonra bunu bilin ki, sizin*** (namaz qılarkən arxamda durduğunuz) ***yeriniz mənə qapalı deyildir, ancaq bu namazı fərz kimi qəbul edib sonra yerinə yetirə bilməyəcəyinizdən qorxdum*** (yanınıza namaz qılmağa çıxmadım)" – deyə buyurdu.

Hədisi rəvayət edənlərdən Şihab əz-Zühri demişdir: "Vəziyyət elə bu halda ikən Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) vəfat etdi."

---

(Hədisin variantları 423 və 424-cü hədislərdir. Peyğəmbərimizin təravih namazının nə şəkildə olması haqqında 608-ci hədisə baxın.)

## 32-) Qədir gecəsinin fəziləti bölməsi

**{&}** 973-) İbn Ömər (A. o. r.) rəvayət edir: "Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) səhabələrindən bəzilərinə qədir gecəsinin ramazanın sonundakı yeddi gecədə olduğu göstərilmişdi. Bununla bağlı olaraq Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) buyurmuşdur: ***"Mən sizin gördüklərinizi görürəm, qədir gecəsi sonuncu yeddi gecəyə təsadüf edir. Buna görə, kim bu gecəni tapmaq istəyirsə son yeddi gecədə axtarsın".***

**{•}** 974-) Əbu Səid əl-Xudri (A. o. r.) rəvayət edir: "Ramazanın ortasındakı on gündə Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) ilə birlikdə məsciddən çıxmadan ibadətlə məşğul olduq. İyirminci günün səhərisi (ibadət yerindən) çıxıb bizə xütbə oxudu və buyurdu: ***"Mənə Qədir gecəsi göstərildi, sonra isə unutduruldu, amma siz onu sonrakı on gecənin təklərinin birində axtarın. Bir də mənə özümün*** (bu gecənin səhəri) ***su və palçıq içində səcdə qıldığım da göstərildi. Kim Allahın Elçisi ilə məscidə çəkilib ibadət edirdisə, yerinə qayıtsın".*** Biz də

______________________________

(məscidə ibadət yerinə) qayıtdıq, göydə heç bir bulud görmürdük, bu vaxt bir bulud gəldi və elə bir yağış yağdı ki, məscidin tamasası axdı. Məscidin tamasası xurma budaqlarından hörülmüşdü. Sübh namazı qılındı. Allahın Elçisini (ona Allahın salamı və salavatı olsun) su və palçığın içində səcdə qılarkən gördüm, alnındakı palçıq izlərini belə gördüm".

975-) İbn Abbasdan (A. o. r.) rəvayət edilir: "Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) buyurdu: ***"O Qədir gecəsini ramazanın axırındakı on gecədə, arxada qalan doqquzuncu gecəsində, arxada qalan yeddinci gecəsində, arxada qalan beşinci gecəsində axtarın".***

976-) Yenə də İbn Abbasdan (A. o. r.) rəvayət edilən bir başqa hədisdə isə Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) buyurur: ***"O, yəni qədir gecəsi*** (axırdakı) ***o, keçən on gündə, doqquzuncuda və ya qalan yeddidədir".***

**&** 977-) Aişə (A. o. r.) demişdir: "Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) Ramazan ayının (son) on (günü) girəndə bağını möhkəm bağlayar, gecəni oyaq qalar, ailəsini də oyadardı".

(Qədir gecəsi hökm və təqdir gecəsi mənasını verdiyi kimi, dəyərli, şərəfli, uca mənasını da bildirir. Quranda bu gecənin adı ilə bağlı bir surə vardır:

**"Həqiqətən, Biz onu (**Quranı**) Qədir gecəsi (**lövhi-məhfuzda dünya səmasına**) nazil etdik! (**Ya Peyğəmbər**!) Sən nə bilirsən (**haradan bilirsən**) ki, Qədir gecəsi nədir?! Qədir gecəsi (**savab cəhətdən**) min aydan daha xeyirlidir! (**O, ramazan ayının on doqquzuna, iyirmi birinə, iyirmi üçünə, iyirmi beşinə, bir rəvayətə görə isə iyirmi yeddisinə təsadüf edir**). O gecə mələklər və ruh (**Cəbrail**) Rəbbinin izni ilə** (həmin

gündən gələn ilin Qədir gecəsinədək dünyada baş verəcək**) hər bir işdən dolayı (**Allah dərgahından əmrlər alaraq**) yerə enərlər. O gecə dan yeri sökülənə kimi (**büsbütün**) salamatlıqdır! (**əmin-amanlıqdır**) (**Qədir gecəsi heç bir bəla nazil olmaz, o, bütünlüklə xeyir-bərəkətdən ibarətdir. O gecə mələklər yer üzündə gəzib Allahın müxlis bəndələrinə salam verərlər. Buna görə də Qədir gecəsi səhərə qədər oyaq qalıb ibadət etmək lazımdır!**)"** (Qədr, 97/1-5) Surədə verilmiş **"min ay"** ifadəsi bəzi alimlərə görə sadəcə çoxluğu ifadə edir. (Fathul-Kadr, Şəvkani, V, 555)

Belə qiymətli bir gecənin hansı gecə olması barədə qırxa kimi müxtəlif baxışlar vardır. (Fəthul-Kadır, V. 555) Gecə xüsusi olaraq məlum bir vaxt hüdudunda təyin edilməmişdir. Bunun hikməti bildirilməmişdir. Əslində, insanların daima səy göstərsinlər deyə Uca Allah razılığını, əzəmətli adını, orta namazı, tövbənin qəbulunu, insanın öləcəyi vaxtı, cümə günü Allahın duaları qəbul etməsi vaxtını, gecədəki duaları qəbul etmək vaxtını gizli saxlamışdır. (Təsiru-Kəbir, XXXI. 27; Zadul-Məsir, İbn Cəvzi, V. 276)

Qədir gecəsi haqqında gələn hədislərə görə bu gecə Ramazan ayının 1, 17, 18, 19, 21, 23, 25,27, 29 gecələrindədir. Peyğəmbərə (ona Allahın salamı və salavatı olsun) qədir gecəsi barədə sual verdikdə: ***"O, Ramazanın bütünündədir" –*** deyə buyurmuşdur. (Əbu Davud, Əbvabu şəhri ramazan, 321) Son on gecədə ola bləcəyi kimi, bütün tək gecələrdə olduğu da bildirilir.

Abdullah b.Məsud (A. o. r.) demişdir: "Kim bir il tam oyaq qalsa qədir gecəsinə rast gələr". (Əbu Davud, Əbvabu şəhri ramazan, 316) Buna görə Əbu Bəkr əl-Cəssas və bir sıra hənəfilər qədir gecəsinin ilin içərisində yayıldığını bildirmişlər. (Əhkamul-Quran, Cəssas, V. 374) İmam Əzəmin də bu baxışla razı olduğu söylənir. Ancaq bir başqa rəvayətə görə İmam Əzəm: "Qədir gecəsi ramazanın əvvəlində də, sonunda da gələ bilər" demişdir. (Umdətul-Kari, IX, 206)

Qədir gecəsinin hansı gecədə olduğunu bildirən hədislərdəki ifadələrin qapalı olduğu aydın görünür: "axıra qalan doqquzuncu gecə" kimi. İndi biz ayın 29 və ya 30-dan hansının olacağını bilmədiyimizdən, bunun axıra qalan 29 və ya 30-cu gün olması məlum deyil.

Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) buyurmuşdur: ***"Kim qədir gecəsi camaatla namaz qılarsa, ondan böyük qismətini almış olar"*** (Muvatta, İtikaf, 17)

Qədir gecəsinin hər il müxtəlif gecəyə rast düşməsi və ilin bütün gecələri içində dəyişdiyi və ya ən azı ramazan gecələri içində dəyişdiyi bildirilmiş bütün belə hədislərin toplanmışdır. Buna görə "hədislərin bir-birindən fərqlənməsi ziddiyyət təşkil etmir, bunlar hər dəfə ayrı-ayrı illərin qədir gecəsini göstərir" deyilmişdir. (Şərhu Muslim, Nəvəvi, VII, 297)

Yuxarıda bildirildiyi kimi bu gecənin qəti şəkildə vaxtının bildirilməməsinin hikməti insanları daima fəal vəziyyətdə saxlamaqdır. Məhz bu səbəbə görə İbn Məsudun (A. o. r.) yuxarıda yad edilən ***"Kim qədir gecəsi camaatla namaz qılarsa, ondan böyük qismətini almış olar"*** hədisi Ubey b. Kəbə (A. o. r.) söylədikdə, o demişdir: "Allah ona rəhmət etsin, əslində özü də bunun ramazan ayında olduğunu bilirdi. Ancaq xalqın buna ümid bağlayıb tənbəlləşməsini istəmədiyi üçün o belə demişdi". (Əbu Davud, Ədvabu şəhri ramazan, 316; Tirmizi, Savm, 71)

Qədir gecəsi Quranın nazil olunduğu gecədir. (Qədir, 97/1) Quran Ramazan ayında nazil edilmişdir.(Bəqərə, 2/185) Əslinə qaldıqda Quran 23 illik bir müddətdə hissə-hissə nazil edilmişdir. Qədir gecəsində nazil edilməsi onun ilk başlanğıcına aiddir və ya Lövhi-məfhuzdan yaxın səmaya birdəfəlik göndərilməsi ilə bağlıdır.

Bu açıqlamalardan başa düşdüyümüz ondan ibarətdir ki, bu aydan daha xeyirli olan qədir gecəsinin hansı gecəyə düşməsinin, insanları tənbəlliyə salmamaq üçün, dəqiq vaxtı bildirilməmişdir. Ramazanda hər gecəni qədir gecəsi kimi dəyərləndirməyimiz, xüsusilə də, ramazan ayının bütün gecələrini oyaq qarşılamağımız lazımdır. Təkcə 27-ci gecəni oyaq qalaraq digərlərinə diqqət yetirməmək doğru olmaz. **"Hər gecəni Qədir, hər gələni Xızır bil!"** atalar sözü də bu barədə çox gözəl misaldır. Madəm ki, qədir gecəsi Qurani Kərimin nazil edildiyi gecədir, o halda Quranın bizə nazil olması, Quranla yaşadığımızı daxilən hiss etdiyimiz hər bir gecə bizim üçün bir **Qədir Gecəsidir.**

Alimlərin həmrəy olduqları bir məsələ də qədir gecəsinin qiymətli və şərəfli olmasının səbəbi, gecə ilə bağlı deyil, gecədə olan şeylə bağlıdır. Bu gecədə Quran nazil edildiyindən, Quranın

ucalığı bu gecənin şənini də yüksəltmişdir. Beləliklə, Quranı qəlbimizə yaxınlaşdırdığımız hər gecə qədir gecəsi olacaqdır.)

## 33-) İtikaf[1] bölməsi

**{&}** 978-) Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) zövcəsi Aişədən (A.o.r.): "Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) vəfat edənə qədər ramazanın son on günündə itikafa girməsi, onun vəfatından sonra da zövcələrinin itikafa girdikləri rəvayət olunmuşdur.

**&** 979-) Yenə Aişə (A.o.r.) demişdir: "Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) məsciddə (itikafda) olduğu halda başını mənim otağıma uzadır, mən də saçına baxardım. O, itikafda olarkən (məsciddə qapanaraq vaxtını ibadətdə keçirdiyi vaxt) ancaq bir zəruriyyət olduqda evə girərdi".

(Buradakı "zəruriyyət" ifadəsinin işlədilməsinin məqsədi dəstəmazın pozulması ehtiyacı olduğu barədə rəy vardır. Bundan başqa bir qisim digər tələbatlar haqqında müxtəlif nəzər nöqtələri irəli sürülmüşdür. Mövzu ilə bağlı fiqh kitablarında bunların təfsilatına baxmaq mümkündür.)

980-) İbn Ömərdən (A.o.r.) rəvayət edilir: "Ömər b. Xəttab (A. o. r.) Peyğəmbərə (ona Allahın salamı və salavatı olsun): "Cahiliyyə dövründə məscidi-haramda bir gecə itikafda olmağıma söz vermişdim...?" – soruşdu. O isə: ***"Sözünü yerinə yetir"*** **–** deyə buyurdu.

(Bu söhbət Huneyn səfərindən Məkkəyə qayıdarkən olmuşdur. (Buxari, Məğazi, 54) Hədisin ardı üçün 1328-ci hədisə baxın.)

---

[1] **İtikaf –** bir yerə qapanaraq vaxtını ibadətlə keçirmək. F.S.

**{&}** 981-) Aişədən (A. o. r.): Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) itikafa girmək istəyirdi. İtikafa girmək istədiyi yerə girəndə baxıb (orada) bir neçə çadır görür: Aişənin çadırı, Hafsənin çadırı, Zeynəbin çadırını. Buna görə buyurur: ***"Belə etməklə yaxşı bir iş gördüyünüzümü zənn edirsiniz?"*** Oradan uzaqlaşaraq itikafa girmədi. Nəhayət, şəvval ayında on gün itikaf etdi.

(Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) zövcələrinin bu rəftarına qarşı göstərdiyi münasibəti bir sıra mənalarda yozulmuşdur. Xalq arasında itikafın fərz kimi başa düşüləcəyi də deyilmiş və o da həmin il ramazan ayında itikafa girməmiş və yaxud zövcələrinin məsciddə itikafda olmalarına qarşı çıxdığı üçün belə etmiş və yaxud da məsciddə sıxıntı yaradacağına görə belə qərara gəlmişdir. Ola da bilsin ki, zövcələri arasında rəqabət olduğunu sezərək bu cür hərəkət etmişdir.)

**&** 982-) Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) zövcəsi Səfiyyədən (A. o. r.): "O, ramazanın son on günündə məsciddəki guşəsində (gecələyən) Allahın Elçisini (ona Allahın salamı və salavatı olsun) ziyarət etməyə gəlmiş və bir müddət onunla söhbət etdikdən sonra geri qayıtmaq üçün ayağa qalxmış, Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) də onu ötürmək üçün ayağa durmuşdur. Nəhayət, Ümmü Sələmənin qapısının yanındakı məscid qapısına çatdıqda iki nəfər ənsar gəlib Allahın Elçisinə (ona Allahın salamı və salavatı olsun) salam vermişlər. Buna görə Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) onlara demişdir: ***"Bir az dayanın, bu yanımdakı qadın*** (zövcəm) ***Səfiyyə***

***binti Huyeydir".*** Bu vəziyyət[1] çəkinərək: "Sübhanəllah, ey Allahın Elçisi?" – demişdilər. Bununla bağlı olaraq Allahın Elçisi (ona Allahın salamı və salavatı olsun) buyurmuşdur: ***"Şübhəsiz ki, şeytan insanın qan damarına da girir. Buna görə mən onun sizin qəlbinizə müəyyən şeylər salacağından ötrü narahat oldum".***

(Bu hədis Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) şübhə oyandıracaq hallarda izahat verərək rastlaşdığı adamlara xəbərdarlıq etdiyini görürük. Artıq etimadın ən yüksək zirvəsinə ucalmış bir şəxs bu cür davranırsa, onun səviyyəsindən aşağı olanların belə hallarda daha tez-tez açıqlama verməsi vacibdir.)

983-) Əbu Hureyrə (A. o. r.) demişdir: "Peyğəmbər (ona Allahın salamı və salavatı olsun) hər ramazanda on gün itikafa girərdi[2]. Vəfat etdiyi il itikafda iyirmi gün oldu.

(İtikafın lüğəti mənası – olduğu bir yerdən kənara çıxmadan gözləməkdir. Dini istilah kimi – camaatla namaz qılına bilən bir məsciddə oruc halda itikafa niyyət edərək oturub gözləmək deməkdir. İtikaf üç qisimdən ibrətdir:

1. **Vacib**: niyyət edəndə yerinə yetirilir;
2. **Təkid edilmiş sünnə**: Ramazanın son on günü ərzində oruc halında heç olmazsa ən azı bir gün məsciddən çıxmadan itikaf etmək;
3. **Müstəhəb** (bəyənilən): bu, yuxarıda iki göstərilənləri çıxmaq şərti ilə hər vaxt yerinə yetirilə bilən itikafdır, müddəti ən az vaxt vahididir. Bu halda oruc olmaq şərt deyil.

---

[1] Peyğəmbərin (ona Allahın salamı və salavatı olsun) bu izahı ilə özünü doğrultmağa səy göstərməsi onlara ağır təsir bağışlamış, onu narahat etdiklərinə görə vicdan əzabı çəkmişlər. Allahın Elçisinin (ona Allahın salamı və salavatı olsun) bu xasiyyəti onun nə dərəcədə saf, pak qəlbə, abır-həyaya, ismətə malik olduğunu və həm də dedi-qodudan çəkindiyini göstərir. F.S.

[2] **İtikaf –** məsciddə bir yerə qapanaraq vaxtını ibadətlə keçirmək. F.S.

İkinci qisim itikaf. Əgər bir şəhərdə bir nəfər onu yerinə yetirərsə, digərlərinin üstündən, sünnədən kənar çıxılmayıbsa, məsuliyyət götürülür. Əgər heç kim onu yerinə yetirməyibsə, o şəhərin əhalisinin hamısı ***təkid edilmiş sünnədən*** boyun qaçırmış hesab olunur.

Üçüncü qisim itikaf. Hər vaxt yerinə yetirilə bilər. Ramazan ayı və oruc olmaq şərt deyil. Məsciddə oturub gözləyərkən qısa bir müddətə də olsa itikafa niyyət edilərsə, itikafa girilmiş sayılır. Məsciddən çıxmaqla itikafa son verilir.

İtikaf artıq unudulan sünnələrdən olmağa başlamışdır. Buna görə müsəlmanların bu ibadəti həyata qaytarmaları lazımdır. Xüsusilə müstəhəb itikaf haqqında xalqımızın nə məlumatı var, nə də onu tətbiq etmir. Müsəlmanların öz məscidlərini itikaf yeri etmələri, burada Allaha xidmət göstərmələri, itikaf əsasında Allahın Kitabını oxuyub başa düşməyə səy göstərmələri gözəl davranış sünnəsidir. 367-ci hədisdə görülən kimi, namazı gözləmək, namaz qılmaq kimidir. 299-cu hədisdə isə məsciddə olan adam üçün mələklərinin dua etməsi izah olunmuşdur.

# Mündəricat

**f/s**